*Hekayə*

# Bəylik kostyumu



**Zakir Bağır**

- Bizi rusvay etmək istəyirsən? Bu nə kastumdur almısan? Sənnin heç zövqün yox imiş.

Bizim tərəflərdə dəbdir. Kürəkən üçün bəylik kastumunu qız evi alır. Qayınanam mənə pul vermişdi ki, özümə bəylik kastumu alım. Kişi paltarı alan mağazaya getdim. Satıcı cavan qız idi.

- Xanım, - dedim- Bu yaxınlarda toyumdur. Bəylik kastumu istəyirəm.

Satıcı qız soruşdu:

- Nə əcəb nişanlınızı gətirməmisiniz?

Cavab gözləmədən.

- Gətirsəydiniz, yaxşı olardı.

Özümə bəylik kastumu seçdim.

Pulunu verib mağazadan çıxmaq istəyəndə satıcı qız dedi:

- Mübarəkdir, sağlıqla geyinəsiniz.

Sonra əlavə etdi:

- Kastumu bəyənməsələr qaytara bilərsiniz. Məsləhət görürəm, kastum almaq üçün gələndə nişanlınızı da gətirəsiniz.

Nişanlım kastumu səliqə ilə bükdü:

- Apar qaytar.

Mən indiyə kimi özümə aldığım paltarı qaytarmamışam. Nişanlımın dediyi sözü eşidəndə tərəddüm etdim.

- Elə indicə apar, qaytar kastumu.

Bir söz demədim. Kastuma bükülmüş bağlamanı götürüb otaqdan çıxdım. Satıcı qız məni görüb gülümsündü:

- Deyəsən kastumu bəyənmədilər. Axı Sizə demişdim, nişanlınızı gətirəsiniz.

O, bağlamanı açdı, kastumu çıxarıb açdı. Sonra pulu qaytardı.

Mağazadan çıxanda təkrar bildirdi.

- Bəylik kastumu almaq üçün gələndə nişanlınızı gətirməyi unutmayın.

... Kastumu qaytardın? - Nişanlım soruşdu.

- Qaytardım - dedim.

- Gedək kastum almağa.

Əvvəlcə kastum aldığım və qaytardığım mağazaya getdik. Nişanlım açılmış kostyumları bir-bir nəzərdən keçirtdi.

Sifətindən aydın oldu ki, kastumlar onun xoşuna gəlməyib

- Daha başqa kastum yoxdur?

- Elə bunlardır. Amma bu günlərdə təzə kastum alacağıq.

- Onda gələrik.

Mağazadan çıxdıq. Üz-bəüz bir mağaza vardı. Qapının yuxarısında yazılmışdı:

"Qadın dünyası" Endrim 70 faiz.

- Gəl gedək mağazaya.

Burada qadınlar üçün paltarlar satılırdı.

Nişanlım satıcı qızdan soruşdu:

- Haranın malıdır?

- Türkiyənin

- Hansı şirkətin?

Satıcı qız gözlərini döydü. O, haraya isə getdi. Çox çəkmədi, bir oğlanla qayıtdı. Deyəsən oğlan mağaza sahibi idi.

- Nə qulluğunuz xanım?

- Satıcı qız dedi ki, Türkiyənin malıdır. Bilmək istəyirəm, hansı şirkətin istehsalıdır?

Mağaza sahibi fikirə getdi. Sonra paltara vurulmuş etketə baxdı. Bir ad dedi:

- Baxa bilərsiniz etketə.

Nişanlım 4 ektetə nəzər saldı.

Paltarın o üzünə, bu üzünə baxdı. Sonra dartdı. Paltarın orta hissəsində dəliklər yarandı.

- Bu çinin keyfiyətsiz malıdır.

Satıcı qızında, mağaza sahibinində rəngi ağardı.

- Dediyiniz paltara vurulmuş etiketin şirkət çoxdan bağlanıb. Şirkətin prezidenti də həbs olunub. İndi cəza evində yatır.

Türkiyədə yerli məhsullara vurulmuş etketlər və elanlar birinci türk dilində sonra ingilis dilində yazılır.

Bu paltarlara vurulmuş etiketlər ancaq ingilis dilində yazılıb.

Mağaza sahibi də, satıcı qızda özlərini itirdilər.

Mağazadan çıxdıq.

Bizdə istehsal olunan məhsullara baxdım. Həm etiketlər, həm elanlar ingilis dilində idi.

Başqa mağazaya daxil olduq. Nişanlım paltarları nəzərdən keçirtdi. Onların qiymətini soruşdu. Satıcı qız elə qiymət dedi ki, nişanlısı od götürdü. Bayaqdan bizə baxan mağaza sahibi bizə yaxınlaşdı.

- Bu paltarları istehsal edən ölkədə filan qiymətə satılır. Xaricə göndərilən mallar bu qiymətə satılmışdır.

Satıcı qız iki qat baha qiymət deyir.

- Bağışlayın xanım, satıcı qız təzədir.

Hansı qiymətə deyirsiniz o qiymətə də ala bilərsiniz.

Nişanlım özünə bir neçə paltar aldı. Başqa bir mağazaya girdik. Nə qədər qadın paltarları satan mağaza varmış. Nişanlım buradada özünə bir neçə paltar aldı.

Deyəsən o, hiss etmişdi anasının bəylik kastumu üçün verdiyi pul artıq qurtarıb.

- Kastumun pulu qurtarıb? - Cavab gözləmədən - Səndə başqa pul var?

- Var dedim

Nişanlım qulağıma pıçıldadı:

- Yaxşı alt paltarı var, almaq istəyirəm.

İstədiyi qədər pul verdim.

Nişanlım trikotaj məmulatları üzrə mühəndis - texnoloqdur. Bu peşəyə maraq onda anası oyadıb.

Anası əmək fəaliyyətinə dərzi kimi başlayıb. Fabrik direktoruna kimi yüksəlib. Nişanlım bu sahədə ali təhsil alıb.

Açığı deyim ki, mən bu pulla o qədər paltar ala bilməzdim.

Paltarlarını taksiyə qoyanda nişanlım dedi:

- Hələ toyumuza iki həftə qalıb. Ona kimi maaş alacaqsan?

- Əlbəttə alacağam.

- Maaş alan kimi sənin üçün bəylik kastumu seçərəm.

Yadıma yazıçı Əfqanın "Kastum əhvalatı" hekayəsi düşdü güldüm. Nişanlım da mənə qoşuldu.